# TURİZMƏSASLI İQTİSADİ DİVERSİFİKASİYA PERSPEKTİVLƏRİ: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ TURİZM POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

DOİ: 10.71447/2413-7235-2026-1-63

**Aybəniz N. Həşimli**
*Müstəqil tədqiqatçı*
*E-mail: aybenizhashimli@gmail.com*
*ORCID: 0009-0009-0026-2629*

**Xülasə**

Məqalədə turizm sektorunun iqtisadi diversifikasiya aləti kimi rolu araşdırılmış və Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm potensialı bu kontekstdə qiymətləndirilmişdir. Tədqiqatın əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf imkanlarını müəyyənləşdirmək və bu sektorun regionun iqtisadi fəaliyyətinin şaxələndirilməsində rolunu təhlil etməkdən ibarətdir. Tədqiqat çərçivəsində turizmin iqtisadi inkişaf və diversifikasiya baxımından nəzəri əsasları və beynəlxalq təcrübə araşdırılmış, həmçinin Azərbaycanın turizm sektorunun mövcud vəziyyəti təhlil edilmişdir.
Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Qarabağ və Şərqi Zəngəzur regionları zəngin təbii landşaft, mineral su ehtiyatları, dağlıq relyef və tarixi-mədəni irs kimi turizm resursları baxımından əhəmiyyətli potensiala malikdir. Bununla yanaşı, turizm infrastrukturunun formalaşma mərhələsində olması, investisiya imkanlarının məhdudluğu və regionun beynəlxalq turizm bazarında tanıtımının yetərli səviyyədə olmaması turizm sektorunun inkişafına təsir edən əsas məhdudiyyətlər kimi müəyyən edilmişdir.
Məqalədə regionda turizm sektorunun inkişafı və iqtisadi diversifikasiyanın təmin olunması məqsədilə turizm infrastrukturunun inkişaf etdirilməsi, dağ və qış turizminin genişləndirilməsi, sağlamlıq turizminin inkişafı, regional turizm marşrutlarının formalaşdırılması, turizm investisiyalarının təşviqi, kadr islahatları və beynəlxalq turizm marketinqinin gücləndirilməsi kimi istiqamətlər təklif edilmişdir. Aparılmış təhlil göstərir ki, turizmin məqsədyönlü şəkildə inkişaf etdirilməsi Qarabağ və Şərqi Zəngəzur regionlarının sosial-iqtisadi inkişafına və regionun iqtisadi fəaliyyətinin şaxələndirilməsinə mühüm töhfə verə bilər. Əld ə edilən tədqiqat nəticələri regionda turizm sektorunun inkişafı üçün əlverişli resurs və institusional imkanların mövcud olduğunu göstərir.
***Açar sözlər:*** *turizm, iqtisadi diversifikasiya, regional inkişaf, Qarabağ və Şərqi Zəngəzur, turizm potensialı*

# TOURISM POTENTIAL AS A TOOL OF ECONOMIC DIVERSIFICATION: AN ASSESSMENT OF THE KARABAKH AND EAST ZANGEZUR REGIONS

**Aybeniz N. Hashimli**
*Independent researcher*
*E-mail: aybenizhashimli@gmail.com*
*ORCID: 0009-0009-0026-2629*

**Abstract**

The article examines the role of the tourism sector as an instrument of economic diversification and evaluates the tourism potential of the Karabakh and East Zangezur regions within this context. The main objective of the study is to identify opportunities for tourism development in the liberated territories and to analyze the role of this sector in diversifying regional economic activities. Within the framework of the research, the theoretical foundations of tourism in terms of economic development and diversification, as well as relevant international experience, were examined. In addition, the current state of Azerbaijan's tourism sector was analyzed.

The results of the study indicate that the Karabakh and East Zangezur regions possess considerable tourism potential due to their rich natural landscapes, mineral water resources, mountainous terrain, and historical and cultural heritage. At the same time, several constraints affecting the development of tourism have been identified, including the ongoing formation of tourism infrastructure, limited investment opportunities, and insufficient international promotion of the region in global tourism markets.

The article proposes several directions aimed at developing the tourism sector, strengthening regional development, and supporting economic diversification in the region. These include the development of tourism infrastructure, expansion of mountain and winter tourism, promotion of health tourism, formation of regional tourism routes, encouragement of tourism investments, workforce development in the tourism sector, and strengthening international tourism marketing. The research findings also indicate that favorable resource and institutional conditions exist for the development of tourism in the region.

***Keywords:*** *tourism, economic diversification, regional development, Karabakh and East Zangezur, tourism potential*

# ТУРИСТИЧЕСКИЙ ПОТЕНЦИАЛ КАК ИНСТРУМЕНТ ЭКОНОМИЧЕСКОЙ ДИВЕРСИФИКАЦИИ: ОЦЕНКА КАРАБАХСКОГО И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОГО РЕГИОНОВ

**Айбениз Н. Гашимли**
*Независимый исследователь*
*Э-почта: aybenizhashimli@gmail.com*
*ORCID: 0009-0009-0026-2629*

**Аннотация**

В статье исследуется роль туристического сектора как инструмента экономической диверсификации и оценивается туристический потенциал Карабахского и Восточно-Зангезурского регионов в данном контексте. Основной целью исследования является выявление возможностей развития туризма на освобожденных территориях и анализ роли этого сектора в диверсификации экономической деятельности региона. В рамках исследования были рассмотрены теоретические основы туризма с точки зрения экономического развития и диверсификации, а также изучен международный опыт. Кроме того, был проанализирован современный уровень развития туристического сектора Азербайджана.

Результаты исследования показывают, что Карабахский и Восточно-Зангезурский регионы обладают значительным туристическим потенциалом благодаря богатым природным ландшафтам, минеральным водным ресурсам, горному рельефу и историко-культурному наследию. Вместе с тем выявлен ряд факторов, ограничивающих развитие туристического сектора, включая недостаточно сформированную туристическую инфраструктуру, ограниченные инвестиционные возможности и недостаточное продвижение региона на международном туристическом рынке.

В статье предложены основные направления развития туристического сектора и обеспечения экономической диверсификации региона. К ним относятся развитие туристической инфраструктуры, расширение горного и зимнего туризма, развитие лечебно-оздоровительного туризма, формирование региональных туристических маршрутов, стимулирование инвестиций в туристическую сферу, подготовка кадров в сфере туризма и усиление международного туристического маркетинга. Проведенный анализ показывает, что системное развитие туристического сектора может существенно способствовать социально-экономическому развитию Карабахского и Восточно-Зангезурского регионов и диверсификации экономической деятельности на этих территориях. Результаты исследования показывают, что в регионе существуют благоприятные ресурсные и институциональные условия для развития туристического сектора.

***Ключевые слова:*** *туризм, экономическая диверсификация, региональное развитие, Карабах и Восточный Зангезур, туристический потенциал*

## GİRİŞ

Müasir dövrdə iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi bir çox ölkələr üçün prioritet məsələlərdən biridir. Bu kontekstdə iqtisadi fəaliyyət sahələrinin şaxələndirilməsi, yəni iqtisadi diversifikasiya, xüsusilə təbii resurslara əsaslanan iqtisadi struktura malik ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. İqtisadi diversifikasiya iqtisadiyyatın ayrı-ayrı sahələrdən asılılığını azaltmağa, iqtisadi sabitliyi gücləndirməyə və uzunmüddətli inkişaf imkanlarını genişləndirməyə xidmət edir. Bu baxımdan xidmət sektorunun inkişafı, xüsusilə turizm sahəsinin genişləndirilməsi iqtisadiyyatın strukturunun şaxələndirilməsi baxımından effektiv istiqamətlərdən biri hesab olunur.

Turizm sektoru qlobal miqyasda sürətlə inkişaf edən iqtisadi fəaliyyət sahələrindən biri kimi çıxış edir və bir çox ölkələrdə iqtisadi artımın, məşğulluğun və regional inkişafın mühüm mənbələrindən hesab olunur. Turizmin inkişafı yalnız xidmət sektorunun genişlənməsi ilə məhdudlaşmır, eyni zamanda nəqliyyat, ticarət, tikinti və digər əlaqəli sahələrin fəaliyyətinə də müsbət təsir göstərir. Bu baxımdan turizm sektoru iqtisadi fəaliyyətin genişlənməsinə və regionlar üzrə iqtisadi aktivliyin artırılmasına töhfə verən mühüm sahələrdən biri kimi qiymətləndirilir.

Azərbaycanda da son illərdə iqtisadi diversifikasiyanın təmin olunması və qeyri-neft sektorunun inkişafı dövlət iqtisadi siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Bu çərçivədə turizm sektorunun inkişafı xüsusi əhəmiyyət daşıyır. Ölkənin zəngin təbii resursları, müxtəlif iqlim şəraiti, eləcə də tarixi və mədəni irsi turizm fəaliyyətinin genişləndirilməsi üçün əlverişli imkanlar yaradır.

Bu səbəbdən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları turizm potensialı baxımından xüsusi diqqətə layiq regionlar hesab olunur. Sözügedən ərazilər zəngin təbii landşaftları, mineral su ehtiyatları, tarixi və mədəni irs nümunələri, eləcə də rekreasiya imkanları ilə seçilir. Eyni zamanda bu regionlarda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri gələcəkdə müasir turizm infrastrukturunun formalaşdırılması üçün mühüm imkanlar yaradır. Bu xüsusiyyətlər Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm baxımından perspektivli ərazilər kimi qiymətləndirilməsinə əsas verir.

Bununla əlaqədar olaraq qeyd olunan regionların turizm potensialının araşdırılması və turizmin iqtisadi diversifikasiyaya mümkün töhfələrinin qiymətləndirilməsi aktual elmi və praktiki əhəmiyyətə malikdir. Tədqiqatın əsas məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialını təhlil etmək və turizmin iqtisadi diversifikasiya prosesində rolunu qiymətləndirməkdir.

Tədqiqat çərçivəsində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur: iqtisadi diversifikasiya və turizmin iqtisadi inkişafda rolu ilə bağlı nəzəri yanaşmaların təhlil edilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi-coğrafi xüsusiyyətlərinin araşdırılması, regionların təbii və mədəni turizm resurslarının qiymətləndirilməsi, həmçinin turizmin regional iqtisadi inkişafa və iqtisadi diversifikasiyaya potensial təsirlərinin müəyyənləşdirilməsi.

Məqalə struktur baxımından bir neçə əsas bölmədən ibarətdir. Birinci bölmədə mövzunun aktuallığı əsaslandırılmış və tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmişdir. İkinci bölmədə iqtisadi diversifikasiya və turizmin iqtisadi inkişafda rolu ilə bağlı nəzəri yanaşmalar və beynəlxalq təcrübə təhlil olunmuşdur. Üçüncü bölmədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi-coğrafi xüsusiyyətləri araşdırılmışdır. Dördüncü bölmədə regionların turizm potensialı və onun iqtisadi inkişafını məhdudlaşdıran amillər qiymətləndirilmiş, beşinci bölmədə isə onların həlli yolları təhlil edilmişdir. Məqalənin sonunda əldə olunan nəticələr ümumiləşdirilmiş və müvafiq tövsiyələr irəli sürülmüşdür.

**İqtisadi Diversifikasiya Aləti kimi Turizm: Nəzəri Yanaşmalar və Beynəlxalq Təcrübə**

Turizmin iqtisadi diversifikasiya strategiyalarında prioritet sahələrdən biri kimi seçilməsi onun iqtisadi sistem daxilində yaratdığı geniş və çoxsahəli təsirlərlə izah olunur. Turizm fəaliyyəti iqtisadiyyatın müxtəlif sektorları ilə sıx qarşılıqlı əlaqədə inkişaf etdiyindən onun genişləndirilməsi

digər xidmət və istehsal sahələrində də iqtisadi aktivliyin artmasına səbəb olur. Turistlərin səyahəti və istehlakı nəticəsində yerləşdirmə xidmətləri, ictimai iaşə, nəqliyyat, ticarət, əyləncə və mədəni fəaliyyətlər kimi sahələrdə əlavə tələbat formalaşır. Bu proses isə yeni iqtisadi fəaliyyət istiqamətlərinin yaranmasına və iqtisadi strukturun daha müxtəlif sahələr üzrə formalaşmasına şərait yaradır. Eyni zamanda turizm sektoru nisbətən yüksək məşğulluq potensialına malik olması ilə seçilir və bu, xüsusilə regionlarda kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırır. Turizmin digər mühüm xüsusiyyəti onun regional yayılma imkanlarının geniş olmasıdır; təbii və mədəni resurslara malik ərazilərdə turizm fəaliyyətinin inkişafı həmin regionlarda iqtisadi aktivliyin artmasına və sosial-iqtisadi inkişafın sürətlənməsinə imkan yaradır. Bundan əlavə, turizm beynəlxalq xidmət ticarətinin mühüm istiqamətlərindən biri kimi ölkəyə xarici valyuta daxilolmalarının artmasına və beynəlxalq iqtisadi əlaqələrin genişlənməsinə də töhfə verir. Bu xüsusiyyətlər turizmin yalnız xidmət sahəsi kimi deyil, həm də iqtisadiyyatın strukturunun şaxələndirilməsinə və yeni inkişaf istiqamətlərinin formalaşmasına imkan yaradan strateji iqtisadi alət kimi qiymətləndirilməsinə əsas yaradır.

Elmi ədəbiyyatda turizm sektorunun iqtisadi inkişaf və iqtisadi strukturun şaxələndirilməsi prosesində rolu geniş şəkildə araşdırılmışdır. Məsələn, Jaume Balaguer və María Cantavella-Jordá İspaniya iqtisadiyyatı üzrə apardıqları empirik araşdırmada turizmin uzunmüddətli iqtisadi artımın təmin edilməsində əhəmiyyətli rol oynadığını qeyd etmişlər. Müəlliflər turizm gəlirlərinin artmasının xidmət sektorunun genişlənməsinə və iqtisadi strukturun daha çox turizm və xidmət yönümlü fəaliyyət sahələri üzrə formalaşmasına səbəb olduğunu vurğulayırlar (Balaguer, J., & Cantavella-Jordá, M., 2002).

Turizm və iqtisadi artım arasındakı əlaqəni izah edən mühüm nəzəri yanaşmalardan biri də turizmə əsaslanan iqtisadi artım hipotezidir (tourism-led growth hypothesis). Bu yanaşma çərçivəsində aparılan tədqiqatlarda turizm sektorunun iqtisadi artımın stimullaşdırılmasında mühüm rol oynadığı qeyd olunur. Noelia Brida və həmkarları tərəfindən aparılan araşdırmalarda göstərilir ki, turizm sektorunun inkişafı ölkə iqtisadiyyatında gəlirlərin və iqtisadi fəallığın artmasına önəmli təsir göstərir. Müəlliflər turizmin iqtisadi sistem daxilində müxtəlif sektorlar arasında qarşılıqlı əlaqələri gücləndirdiyini və bunun nəticəsində iqtisadi strukturun şaxələndirilməsi üçün əlverişli şərait yarandığını qeyd edirlər (Brida, J. G., Cortes-Jimenez, I., & Pulina, M., 2016).

Turizmin regional inkişaf baxımından əhəmiyyətini vurğulayan tədqiqatlar da mövcuddur. Robertico Croes və Manuel Vanegas tərəfindən aparılmış araşdırmalarda turizm sektorunun xüsusilə inkişaf etməkdə olan ölkələrdə regional iqtisadi fəallığın artmasına və yeni iqtisadi fəaliyyət sahələrinin formalaşmasına töhfə verdiyi göstərilir. Müəlliflərin fikrincə, turizm sektorunun inkişafı regionlarda məşğulluğun genişlənməsinə və yerli sahibkarlığın formalaşmasına şərait yaradır ki, bu da iqtisadi inkişafın daha geniş ərazilərə yayılmasına imkan verir (Croes, R., & Vanegas, M., 2008).

Turizm və inkişaf məsələlərini araşdıran digər tədqiqatçılar da bu sektorun iqtisadi transformasiyada mühüm rol oynadığını qeyd edirlər. Məsələn, Richard Sharpley turizmin xüsusilə inkişaf etməkdə olan ölkələrdə iqtisadi diversifikasiya üçün alternativ inkişaf istiqamətlərindən biri kimi çıxış etdiyini vurğulayır. Müəllif qeyd edir ki, turizm təbii və mədəni resursların iqtisadi fəaliyyətə cəlb edilməsinə imkan yaradır və bu proses regionlarda yeni iqtisadi fəaliyyət sahələrinin formalaşmasına şərait yaradır (Sharpley, R., 2009).

Azərbaycan iqtisadi ədəbiyyatında da turizmin iqtisadi inkişaf və qeyri-neft sektorunun genişlənməsində rolu ilə bağlı müxtəlif tədqiqatlar aparılmışdır. Məsələn, Adil Ələkbərov və Elşad Sadıqov Azərbaycanda turizmin inkişaf perspektivlərini araşdıraraq qeyd etmişlər ki, turizm sektoru qeyri-neft iqtisadiyyatının inkişafı və regionların sosial-iqtisadi potensialının reallaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Onların fikrincə, turizm fəaliyyətinin genişləndirilməsi regionlarda sahibkarlıq fəaliyyətinin artmasına və yeni xidmət sahələrinin formalaşmasına şərait yaradır (Ələkbərov, A. M., & Sadıqov, E. M., 2017).

Bundan əlavə, Mahir İbrahimov turizmin regional iqtisadi inkişaf baxımından rolunu araşdıraraq qeyd edir ki, turizm sektoru yerli resursların iqtisadi dövriyyəyə cəlb edilməsinə və regionlarda iqtisadi aktivliyin artmasına mühüm töhfə verir. Müəllifə görə turizm fəaliyyətinin inkişafı regionların iqtisadi potensialının daha səmərəli istifadə olunmasına və qeyri-neft sektorunun genişləndirilməsinə imkan yaradan mühüm inkişaf istiqamətlərindən biridir (İbrahimov, M., 2018).

Beləliklə, beynəlxalq və yerli elmi tədqiqatların nəticələri göstərir ki, turizm sektoru iqtisadi artımın stimullaşdırılması, regional inkişafın dəstəklənməsi və iqtisadi fəaliyyət sahələrinin şaxələndirilməsi baxımından mühüm rol oynayır.

Dünya təcrübəsi göstərir ki, bir çox ölkələr iqtisadiyyatın şaxələndirilməsi prosesində turizm sektorunun inkişafından effektiv şəkildə istifadə etmişlər. Bu ölkələrdə turizm sahəsi strateji prioritet kimi müəyyən edilmiş və dövlət siyasəti çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində turizm milli iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmişdir. Xüsusilə Aralıq dənizi regionu və Cənub-Şərqi Asiya ölkələrinin təcrübəsi turizmin iqtisadi diversifikasiya baxımından əhəmiyyətini aydın şəkildə nümayiş etdirir.

Bu baxımdan İspaniya turizmin iqtisadi inkişaf və struktur dəyişikliklərində mühüm rol oynadığı ölkələrdən biri hesab olunur. XX əsrin ikinci yarısından etibarən ölkədə turizm sektorunun inkişafına yönəlmiş məqsədyönlü dövlət siyasəti həyata keçirilmişdir. Turizm infrastrukturu, nəqliyyat sistemləri və sahil turizminin inkişafına yönələn investisiyalar nəticəsində ölkə qlobal turizm bazarında aparıcı mövqelərdən birini tutmuşdur. Turizm fəaliyyətinin genişlənməsi İspaniyada xidmət sektorunun inkişafını sürətləndirmiş, eyni zamanda müxtəlif regionlarda iqtisadi aktivliyin artmasına və məşğulluğun genişlənməsinə müsbət təsir göstərmişdir (Balaguer, J., & Cantavella-Jordá, M., 2002).

Turizm sektorunun iqtisadi diversifikasiyaya töhfə verdiyi digər ölkələrdən biri Türkiyədir. 1980-ci illərdən başlayaraq Türkiyədə turizm sənayesinin inkişafı dövlət iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Bu məqsədlə turizm investisiyalarının stimullaşdırılması, turizm bölgələrinin yaradılması və ölkənin beynəlxalq turizm bazarlarında tanıdılması istiqamətində müxtəlif proqramlar həyata keçirilmişdir. Nəticədə turizm sektoru Türkiyə iqtisadiyyatında mühüm gəlir mənbələrindən birinə çevrilmiş və xidmət sahələrinin inkişafına əhəmiyyətli təkan vermişdir (Brida, J. G., Cortes-Jimenez, I., & Pulina, M., 2016).

Birləşmiş Ərəb Əmirliklərinin təcrübəsi də turizmin iqtisadi diversifikasiya baxımından əhəmiyyətini göstərən nümunələrdən biridir. Bu ölkədə turizm sektorunun inkişafı neft gəlirlərindən asılılığın azaldılması məqsədilə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Xüsusilə Dubay şəhərində beynəlxalq turizm və biznes mərkəzinin formalaşdırılması istiqamətində həyata keçirilən iri infrastruktur layihələri turizm sektorunun sürətli inkişafına şərait yaratmışdır. Nəticədə turizm sahəsi qeyri-neft gəlirlərinin artmasına və xidmət sektorunun genişlənməsinə mühüm töhfə vermişdir (UNWTO – United Nations World Tourism Organization, 2019).

Cənub-Şərqi Asiya regionunda yerləşən Malayziya da turizm sektorunun inkişafı vasitəsilə iqtisadi diversifikasiya strategiyasını həyata keçirən ölkələrdən biri kimi göstərilir. Malayziyada hökumət turizmin inkişafını iqtisadi siyasətin mühüm istiqamətlərindən biri kimi müəyyən etmiş və bu sahənin inkişafı üçün genişmiqyaslı infrastruktur layihələri həyata keçirilmişdir. Bununla yanaşı, “Malaysia Truly Asia” kimi beynəlxalq turizm brendinin formalaşdırılması ölkənin qlobal turizm bazarında mövqeyinin güclənməsinə imkan yaratmışdır. Turizm sektorunun inkişafı nəticəsində ölkədə xidmət sahələrinin payı artmış və regionlarda iqtisadi aktivlik genişlənmişdir (**OECD – Organisation for Economic Co-operation and Development**, 2020).

Beləliklə, müxtəlif ölkələrin təcrübəsi göstərir ki, turizm sektorunun inkişafı iqtisadiyyatın strukturunun şaxələndirilməsi və xidmət sektorunun genişlənməsi baxımından mühüm rol oynayır. Turizm infrastrukturu və xidmətlərinin inkişafı regionlarda iqtisadi fəaliyyətin artmasına, yeni iş

yerlərinin yaradılmasına və ölkələrin beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsinə imkan yaradır. Bu səbəbdən turizm bir çox dövlətlərdə iqtisadi diversifikasiya strategiyalarının əsas komponentlərindən biri kimi qiymətləndirilir.

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi-coğrafi xüsusiyyətləri**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın cənub-qərb hissəsində yerləşərək ölkənin mühüm strateji və iqtisadi-coğrafi mövqeyə malik ərazilərindən hesab olunur. Bu regionlar əsasən Kiçik Qafqaz dağ sisteminin əhatə etdiyi ərazilərdə yerləşir və mürəkkəb relyef quruluşu, zəngin təbii ehtiyatları və müxtəlif landşaft formaları ilə səciyyələnir. Region şimal və qərbdən Ermənistan, cənubdan isə Araz çayı boyunca İranla həmsərhəddir. Bu mövqe ərazilərin regional nəqliyyat əlaqələri, sərhədyanı əməkdaşlıq və iqtisadi əlaqələrin inkişafı baxımından strateji əhəmiyyətini artırır.

Qarabağ iqtisadi rayonunun mühüm mərkəzlərindən biri olan Şuşa şəhəri Kiçik Qafqazın dağlıq hissəsində yerləşir və tarixi-mədəni irsi ilə seçilən ərazilərdən biridir. Dəniz səviyyəsindən təxminən 1300 metr yüksəklikdə yerləşən şəhər əlverişli dağ iqlimi və zəngin təbii landşaftı ilə xarakterizə olunur. Şuşa ətrafında yerləşən Cıdır düzü bölgənin ən məşhur təbii məkanlarından biri hesab olunur və geniş dağ panoramı ilə seçilir. Bundan əlavə, şəhərin yaxınlığında yerləşən Turşsu mineral bulaqları uzun illərdir müalicəvi xüsusiyyətləri ilə tanınmışdır. Şuşa həm də Azərbaycan mədəniyyət tarixində mühüm yer tutan memarlıq abidələri ilə zəngindir; burada Şuşa qalası, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Xan qızı Natəvanın evi kimi tarixi tikililər yerləşir. Bu amillər şəhərin həm mədəni, həm də rekreasiya turizmi baxımından əhəmiyyətini artırır.

Qarabağ iqtisadi rayonuna daxil olan digər mühüm yaşayış məntəqələrindən biri Xankəndi şəhəridir. Şəhər Qarabağ dağlıq ərazisində yerləşərək regionun mühüm urban mərkəzlərindən biri hesab olunur. Ətraf ərazilərin meşə örtüyü və dağ landşaftı şəhərin təbii mühitini formalaşdırır və bu amillər regionun rekreasiya imkanlarını artıran mühüm xüsusiyyətlərdəndir.

Xocalı rayonu da Qarabağ iqtisadi rayonunun mühüm ərazilərindən biridir. Rayon Qarabağ silsiləsinin dağətəyi hissəsində yerləşir və burada müxtəlif arxeoloji və tarixi abidələr mövcuddur. Xocalı ərazisi xüsusilə qədim yaşayış məskənləri və arxeoloji tapıntılarla tanınır ki, bu da regionun tarixi və mədəni irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ağdərə rayonu isə Kiçik Qafqazın dağlıq ərazilərində yerləşərək zəngin təbii landşaftı və meşə örtüyü ilə seçilir. Rayonun dağlıq relyefi, meşə sahələri və təbii çay şəbəkəsi ərazinin rekreasiya və ekoloji turizm baxımından müəyyən potensiala malik olduğunu göstərir. Bu xüsusiyyətlər Qarabağ iqtisadi rayonunun təbii və rekreasiya resurslarının daha geniş ərazilərə yayıldığını nümayiş etdirir.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Kəlbəcər rayonu regionun ən iri dağlıq ərazilərindən biri olmaqla Kiçik Qafqazın yüksək dağ massivlərini əhatə edir. Rayon ərazisində yerləşən Murovdağ silsiləsi və geniş meşə örtüyü ərazinin təbii landşaftını formalaşdıran əsas elementlərdəndir. Kəlbəcər eyni zamanda zəngin hidrotermal və mineral su ehtiyatları ilə seçilir. Xüsusilə İstisu mineral bulaqları öz müalicəvi xüsusiyyətləri ilə tarixən tanınmış və sovet dövründə regionun mühüm kurort mərkəzlərindən biri kimi fəaliyyət göstərmişdir. Bundan əlavə, rayon ərazisində yerləşən qədim alban məbədləri və Xudavəng monastır kompleksi regionun tarixi-mədəni irsinin mühüm nümunələrindən hesab olunur.

Laçın rayonu Qarabağ və Şərqi Zəngəzur bölgələrini birləşdirən mühüm keçid zonasında yerləşir və dağlıq landşaftı ilə seçilir. Rayon ərazisi geniş meşə sahələri, dağ çayları və zəngin biomüxtəliflik ilə xarakterizə olunur. Bu təbii xüsusiyyətlər ərazinin ekoloji və rekreasiya potensialını artırır. Laçın eyni zamanda qədim yaşayış məskənləri və müxtəlif tarixi tikililərlə də tanınır ki, bu da regionun turizm baxımından əhəmiyyətini artıran amillərdən biridir.

Zəngilan rayonu regionun cənub hissəsində yerləşərək Araz çayı boyunca uzanan əraziləri əhatə edir və İranla sərhəd xətti boyunca yerləşməsi ilə fərqlənir. Rayonun mühüm təbii xüsusiyyətlərindən biri

Bəsitçay Dövlət Təbiət Qoruğunun burada yerləşməsidir. Bu qoruq dünyada nadir rast gəlinən relikt çinar meşələri ilə tanınır və regionun ekoloji baxımdan mühüm ərazilərindən hesab olunur. Zəngilanın təbii landşaft müxtəlifliyi və zəngin flora ehtiyatları onun ekoturizm potensialını artıran əsas amillərdən biri kimi qiymətləndirilir.

Qubadlı və Cəbrayıl rayonları isə əsasən dağətəyi və düzənlik zonalarında yerləşərək Araz vadisinə yaxın əraziləri əhatə edir. Bu rayonlar regionun nəqliyyat əlaqələrinin formalaşmasında və iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayan ərazilərdən hesab olunur. Araz çayı hövzəsinə yaxın yerləşməsi həmin ərazilərin kənd təsərrüfatı və təbii resurs potensialının formalaşmasında da mühüm rol oynayır.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əlverişli iqtisadi-coğrafi mövqeyi, müxtəlif relyef formaları, zəngin təbii ehtiyatları və tarixi-mədəni irsi bu regionun sosial-iqtisadi inkişafı üçün geniş imkanlar yaradır. Bu xüsusiyyətlər eyni zamanda regionun turizm və rekreasiya fəaliyyətinin inkişafı baxımından yüksək potensiala malik olduğunu göstərir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının coğrafi mövqeyi bu ərazilərin nəqliyyat və logistika baxımından mühüm potensiala malik olduğunu göstərir. Azərbaycanın cənub-qərb hissəsində yerləşən bu regionlar ölkənin digər iqtisadi rayonları ilə əlaqələrin inkişafı baxımından strateji mövqedə yerləşir. Bununla yanaşı, regionun Araz çayı boyunca İranla sərhəd xəttinə malik olması və Ermənistanla sərhədyanı ərazilərdə yerləşməsi onun regional nəqliyyat və iqtisadi əlaqələr baxımından əhəmiyyətini artırır. Bu coğrafi mövqe regionun həm sərhədyanı iqtisadi əməkdaşlıq, həm də beynəlxalq tranzit daşımalarında iştirak imkanlarını genişləndirə biləcək potensialını göstərir.

Eyni zamanda regionun Naxçıvan Muxtar Respublikası istiqamətində nəqliyyat əlaqələrinin bərpası perspektivi də xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Zəngəzur nəqliyyat dəhlizinin formalaşdırılması ideyası Qarabağ və Şərqi Zəngəzur regionlarının regional logistika sistemində rolunun artmasına səbəb ola biləcək mühüm amillərdən biri kimi qiymətləndirilir. Belə bir nəqliyyat marşrutunun yaradılması Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa nəqliyyat əlaqəsinin təmin olunmasına, eyni zamanda regionun beynəlxalq nəqliyyat və ticarət marşrutlarına inteqrasiyasına əlavə imkanlar yarada bilər.

İşğaldan azad olunmuş ərazilərdə son illərdə nəqliyyat infrastrukturunun yenidən qurulması və müasir standartlara uyğun inkişaf etdirilməsi istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir. Bu layihələr regionun ölkənin digər hissələri ilə əlaqələrinin bərpası və iqtisadi fəaliyyətin aktivləşdirilməsi baxımından mühüm rol oynayır. Həyata keçirilən infrastruktur layihələri çərçivəsində yeni avtomobil yollarının tikintisi və mövcud yolların əsaslı şəkildə yenidən qurulması həyata keçirilmişdir. Xüsusilə Füzuli–Şuşa avtomobil yolu, Zəfər yolu və Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu kimi magistral yollar regionun dağlıq ərazilərinə nəqliyyat əlçatanlığını təmin edən mühüm layihələr sırasında yer alır.

Regionun nəqliyyat sisteminin inkişafında hava nəqliyyatı infrastrukturu da xüsusi əhəmiyyət daşıyır. İşğaldan azad edilmiş ərazilərdə tikilmiş Füzuli Beynəlxalq Hava Limanı Qarabağ bölgəsinə beynəlxalq səviyyədə hava nəqliyyatı bağlantısının təmin olunmasında mühüm rol oynayır. Bundan əlavə, Zəngilan və Laçın rayonlarında inşa edilən beynəlxalq hava limanları regionun nəqliyyat əlçatanlığının artırılmasına və iqtisadi fəaliyyətin genişləndirilməsinə xidmət edir. Bu hava nəqliyyatı infrastrukturu həm sərnişin daşımalarının, həm də turizm axınının artmasına şərait yarada bilər.

Nəqliyyat infrastrukturunun inkişafı ilə paralel olaraq regionda geniş miqyaslı bərpa və yenidənqurma tədbirləri də həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə dağıdılmış yaşayış məntəqələrinin bərpası, yeni yaşayış komplekslərinin inşası və sosial infrastruktur obyektlərinin yaradılması regionun sosial-iqtisadi inkişafının əsas istiqamətlərindən biridir. Bu proses çərçivəsində şəhər və kəndlərin yenidən planlaşdırılması, müasir şəhərsalma prinsipləri əsasında yaşayış məkanlarının qurulması və mühəndis-kommunikasiya sistemlərinin yaradılması istiqamətində mühüm addımlar atılır.

Regionda həyata keçirilən bərpa işləri yalnız yaşayış məntəqələrinin yenidən qurulması ilə məhdudlaşmır, eyni zamanda iqtisadi fəaliyyətin bərpasına yönəlmiş layihələri də əhatə edir. Bu məqsədlə sənaye və kənd təsərrüfatı zonalarının yaradılması, enerji və kommunikasiya infrastrukturlarının qurulması, həmçinin turizm və rekreasiya obyektlərinin inkişafı üçün yeni imkanlar formalaşdırılır. Bu tədbirlər regionun iqtisadi potensialının reallaşdırılmasına və iqtisadi fəaliyyətin müxtəlif sahələr üzrə genişlənməsinə imkan yaradır.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında nəqliyyat və logistika infrastrukturunun inkişafı, eləcə də genişmiqyaslı bərpa və yenidənqurma layihələrinin həyata keçirilməsi regionun iqtisadi sistemə inteqrasiyasını sürətləndirən mühüm amillərdən biri hesab olunur. Müasir nəqliyyat şəbəkəsinin formalaşdırılması və infrastruktur layihələrinin həyata keçirilməsi gələcəkdə regionun iqtisadi inkişafı və turizm potensialının reallaşdırılması üçün mühüm zəmin yaradır.

**Qarabağ və Şərqi Zəngəzur regionunun turizm potensialının analitik qiymətləndirilməsi və inkişaf məhdudiyyətləri**

Son illərdə turizm sektoru Azərbaycanda qeyri-neft iqtisadiyyatının inkişafında mühüm istiqamətlərdən biri kimi formalaşmışdır. Dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasət çərçivəsində turizm sahəsinin inkişafı iqtisadi fəaliyyətin şaxələndirilməsi və regionların sosial-iqtisadi inkişafının stimullaşdırılması baxımından prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu məqsədlə turizm infrastrukturunun genişləndirilməsi, beynəlxalq turizm bazarlarında ölkənin tanıdılması və turizm xidmətlərinin keyfiyyətinin artırılması istiqamətində müxtəlif proqram və strateji sənədlər qəbul edilmişdir.

Azərbaycanda turizm fəaliyyətinin inkişafı əsasən paytaxt Bakı və ölkənin bir sıra turizm regionları ətrafında formalaşmışdır. Bakı şəhəri beynəlxalq tədbirlərin keçirildiyi əsas turizm mərkəzlərindən biri kimi çıxış edir. Bununla yanaşı, Qəbələ, Şəki, Quba və Naftalan kimi regionlar təbii landşaftları, sağlamlıq turizmi imkanları və mədəni irs obyektləri ilə ölkənin mühüm regional turizm istiqamətlərindən hesab olunur. Bu ərazilərdə turizm infrastrukturu və xidmət sektorunun inkişafı turizm fəaliyyətinin regionlar üzrə genişlənməsinə müəyyən töhfə vermişdir.

Statistik göstəricilər Azərbaycana gələn xarici turistlərin sayında son illərdə müəyyən dəyişkən dinamikanın müşahidə olunduğunu göstərir. Diaqram 1-də 2019–2025-ci illər üzrə Azərbaycana səfər edən xarici turistlərin sayının dinamikası təqdim olunur.

***Diaqram 1.*** *2019–2025-ci illərdə Azərbaycana səfər edən xarici turistlərin sayı (mln nəfər)*




***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.*

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, son illərdə Azərbaycana səfər edən xarici turistlərin sayında müəyyən dəyişkən dinamika müşahidə olunmuşdur. 2019-cu ildə ölkəyə gələn xarici ziyarətçilərin sayı təxminən 3,17 milyon nəfər təşkil etmişdir ki, bu da turizm sektorunun pandemiyadan əvvəlki dövrdə yüksək inkişaf mərhələsində olduğunu göstərir. Lakin 2020-ci ildə COVID-19 pandemiyası ilə əlaqədar beynəlxalq səyahətlərə tətbiq olunan məhdudiyyətlər nəticəsində turist axını kəskin şəkildə azalaraq 0,8 milyon nəfərə qədər enmişdir. Oxşar vəziyyət 2021-ci ildə də davam etmiş və həmin ildə ölkəyə gələn turistlərin sayı təxminən 0,79 milyon nəfər səviyyəsində qalmışdır (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2019-2025).

Sonrakı illərdə turizm sektorunda tədricən bərpa prosesi müşahidə olunmuşdur. Belə ki, 2022-ci ildə Azərbaycana səfər edən xarici turistlərin sayı 2,04 milyon nəfərə yüksəlmişdir. 2023 və 2024-cü illərdə isə bu göstərici daha da artaraq təxminən 2,63 milyon nəfər səviyyəsinə çatmışdır. 2025-ci ildə isə turist axını 2,57 milyon nəfər olmuşdur ki, bu da əvvəlki illərlə müqayisədə müəyyən sabitləşmə tendensiyasının formalaşdığını göstərir. Ümumilikdə təqdim olunan statistika turizm sektorunun pandemiya dövründə ciddi geriləmə ilə üzləşdiyini, lakin sonrakı mərhələdə bərpa olunaraq yenidən inkişaf trayektoriyasına qayıtdığını göstərir (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2019-2025).

Bununla yanaşı, ölkədə turizm sektorunun inkişafı regionlar üzrə bərabər səviyyədə müşahidə olunmur və müəyyən regional fərqlərlə xarakterizə olunur. Turizm fəaliyyətinin əsas hissəsi hələ də Bakı şəhəri və Abşeron yarımadası ətrafında cəmləşmişdir. Halbuki ölkənin digər regionlarında zəngin təbii və mədəni turizm resurslarının mövcudluğuna baxmayaraq, bəzi ərazilərdə nəqliyyat və turizm infrastrukturlarının məhdudluğu, eləcə də xidmət sektorunun kifayət qədər inkişaf etməməsi həmin potensialın tam şəkildə reallaşdırılmasına müəyyən maneələr yaradır. Eyni zamanda turistlərin ölkələr üzrə bölgüsü də göstərir ki, Azərbaycana gələn ziyarətçilərin əhəmiyyətli hissəsi əsasən regional bazarlardan – xüsusilə Rusiya, Türkiyə və İran kimi ölkələrdən formalaşır. Bu vəziyyət turizm bazarının coğrafi strukturunun müəyyən dərəcədə məhdud olduğunu və onun daha geniş

istiqamətlər üzrə inkişaf etdirilməsinin vacibliyini göstərir (CEIC: Global Economic Data, Indicators, Charts & Forecasts, 2024).
Mövcud tendensiyalar göstərir ki, Azərbaycanda turizm sektoru son illərdə müəyyən inkişaf mərhələsinə daxil olmuşdur. Bununla belə, turizm fəaliyyətinin ölkə üzrə daha balanslı şəkildə inkişaf etdirilməsi və yeni turizm məkanlarının formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm sisteminə inteqrasiyası ölkədə turizmin regional diversifikasiyası baxımından yeni imkanlar yarada bilər.
Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm sisteminə inteqrasiyasının qiymətləndirilməsi bu ərazilərin mövcud resurs potensialının hərtərəfli şəkildə təhlil edilməsini zəruri edir. Sözügedən region zəngin təbii landşaftı, mineral su ehtiyatları və tarixi-mədəni irsi ilə turizmin müxtəlif istiqamətlər üzrə inkişafı üçün əlverişli imkanlara malikdir. Bununla yanaşı, regionda həyata keçirilən bərpa və infrastruktur layihələri mövcud resursların turizm fəaliyyəti baxımından daha səmərəli istifadəsinə şərait yaradır. Bu səbəbdən Qarabağ və Şərqi Zəngəzur regionunun turizm potensialını müəyyən edən əsas amillərin sistemli şəkildə müəyyənləşdirilməsi və qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Regionun turizm potensialının formalaşmasında mühüm rol oynayan əsas faktorlar aşağıdakı cədvəldə ümumiləşdirilmiş şəkildə təqdim olunur.

***Cədvəl 1.*** *Qarabağ və Şərqi Zəngəzur regionunun turizm potensialını müəyyən edən əsas amillər*

| **Kateqoriya** | **Amil** | **Qısa izah** |
|---|---|---|
| **Təbii turizm resursları** | Zəngin təbii landşaft və biomüxtəliflik | Dağlıq relyef, meşə sahələri və çay şəbəkəsi regionda ekoturizm və rekreasiya turizminin inkişafı üçün əlverişli şərait yaradır. |
| | Mineral və termal su resursları | Kəlbəcərdə yerləşən İstisu mineral bulaqları sağlamlıq və müalicə turizmi üçün mühüm resurs hesab olunur. |
| | Dağ və qış turizmi imkanları | Yüksək dağ massivləri və iqlim şəraiti qış turizmi və dağ kurortlarının inkişafı üçün əlverişlidir. |
| **Mədəni və sosial turizm resursları** | Tarixi və mədəni irs | Şuşa və digər ərazilərdə yerləşən tarixi abidələr mədəni turizmin inkişafına imkan yaradır. |
| | Ekoturizm və kənd turizmi perspektivləri | Regionun təbii mühiti və kənd təsərrüfatı ənənələri kənd turizmi və ekoturizm üçün potensial yaradır. |
| | Regional turizm marşrutlarının yaradılması | Müxtəlif turizm resurslarının vahid marşrutlar çərçivəsində birləşdirilməsi kompleks turizm məhsulu formalaşdırır. |
| **İnstitusional və iqtisadi amillər** | Yenidənqurma və müasir infrastruktur layihələri | Yeni yollar, hava limanları və digər infrastruktur layihələri turizm fəaliyyətinin inkişafını stimullaşdırır. |
| | Regional iqtisadi inkişafa multiplikativ təsir | Turizm nəqliyyat, ticarət və xidmət sektorunun inkişafını dəstəkləyir. |
| | Turizm klasterlərinin yaradılması imkanları | Regionda müxtəlif turizm növlərinin birləşdirildiyi turizm klasterləri formalaşdırıla bilər. |
| | Beynəlxalq turizm imicinin formalaşması | Qarabağın bərpası regionun beynəlxalq turizm xəritəsində tanınmasına töhfə verə bilər. |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 1-də təqdim olunan amillərin sistemli təhlili göstərir ki, Qarabağ və Şərqi Zəngəzur regionu turizm fəaliyyətinin müxtəlif istiqamətləri üzrə inkişafı üçün geniş və çoxşaxəli resurs bazasına malikdir. Regionun zəngin təbii landşaftı və biomüxtəlifliyi ekoloji və rekreasiya turizminin inkişafı üçün mühüm potensial formalaşdırır. Dağlıq relyef, geniş meşə sahələri və müxtəlif landşaft formaları bu ərazilərdə təbiət əsaslı turizm fəaliyyətinin təşkili baxımından mühüm üstünlüklər hesab olunur. Bununla yanaşı, regionun hidrotermal resursları, xüsusilə Kəlbəcər rayonunda yerləşən İstisu mineral bulaqları sağlamlıq və müalicə turizminin inkişafı üçün əhəmiyyətli potensial formalaşdırır. Bu resurslardan səmərəli istifadə regionda kurort və sanatoriya turizminin inkişaf etdirilməsi üçün perspektiv imkanlar yarada bilər.

Regionun təbii-coğrafi xüsusiyyətləri eyni zamanda dağ və qış turizmi növlərinin inkişafı baxımından da əlverişli imkanlar təqdim edir. Yüksək dağ massivləri, əlverişli iqlim şəraiti və geniş dağ landşaftları bu ərazilərdə xizək və dağ turizmi infrastrukturlarının yaradılması üçün mühüm resurs bazası formalaşdırır. Bu xüsusiyyətlər regionun yalnız yay mövsümündə deyil, eyni zamanda qış turizmi istiqamətində də turizm fəaliyyətinin inkişafına şərait yarada bilər ki, bu da turizm fəaliyyətinin mövsümi asılılığının azaldılması baxımından əhəmiyyətlidir.

Regionun turizm potensialının digər mühüm komponenti onun zəngin tarixi və mədəni irsi ilə bağlıdır. Qarabağ ərazisi Azərbaycan mədəniyyətinin və tarixinin formalaşmasında mühüm rol oynamış bölgələrdən biri hesab olunur və burada çoxsaylı tarixi abidələr, memarlıq nümunələri və dini tikililər mövcuddur. Bu xüsusiyyətlər regionda mədəni turizmin inkişafı üçün əlverişli zəmin yaradır. Bununla yanaşı, kənd ərazilərində mövcud olan təbii mühit, kənd təsərrüfatı ənənələri və yerli həyat tərzi kənd turizmi və ekoturizm kimi alternativ turizm növlərinin inkişaf etdirilməsi üçün əlavə imkanlar yaradır. Bu cür turizm fəaliyyətləri yerli icmaların iqtisadi fəaliyyətə cəlb olunmasına və regionda məşğulluğun artmasına da töhfə verə bilər.

Eyni zamanda regionun müxtəlif turizm resurslarının vahid turizm marşrutları çərçivəsində birləşdirilməsi də turizm potensialının reallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Mədəni, ekoloji və rekreasiya turizmi elementlərini birləşdirən regional turizm marşrutlarının yaradılması turistlər üçün daha kompleks turizm məhsulunun formalaşdırılmasına və regionun turizm cəlbediciliyinin artırılmasına imkan verə bilər.

Bununla yanaşı, regionda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri turizm potensialının reallaşdırılması baxımından mühüm institusional və infrastruktur əsas yaradır. Yeni avtomobil yollarının tikintisi, beynəlxalq hava limanlarının istifadəyə verilməsi və digər nəqliyyat-kommunikasiya layihələri regionun əlçatanlığını artıraraq turizm fəaliyyətinin genişlənməsi üçün əlverişli şərait yaradır. Bu proses turizmin regionda yalnız xidmət sektorunun inkişafı ilə məhdudlaşmayaraq, nəqliyyat, ticarət və kiçik sahibkarlıq kimi sahələrin inkişafına da müsbət təsir göstərməsinə imkan yaradır. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzur regionunun turizm potensialı yalnız yeni turizm istiqamətlərinin formalaşdırılması baxımından deyil, həm də regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsi və iqtisadi fəaliyyətin şaxələndirilməsi baxımından mühüm strateji əhəmiyyət kəsb edir.

Bundan əlavə, regionda turizm fəaliyyətinin planlı şəkildə inkişaf etdirilməsi müxtəlif turizm növlərini birləşdirən turizm klasterlərinin formalaşdırılması üçün də əlverişli imkanlar yarada bilər. Turizm klasterlərinin yaradılması mədəni turizm, ekoturizm, dağ turizmi və sağlamlıq turizmi kimi müxtəlif turizm istiqamətlərinin vahid turizm məhsulu çərçivəsində birləşdirilməsinə imkan verir. Bu yanaşma regionun turizm resurslarının daha səmərəli istifadəsinə və turistlər üçün daha kompleks və rəqabətqabiliyyətli turizm təkliflərinin formalaşdırılmasına şərait yarada bilər. Eyni zamanda turizm klasterlərinin inkişafı regionda turizm fəaliyyətinin daha sistemli şəkildə təşkili və müxtəlif iqtisadi sahələr arasında əlaqələrin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzur regionlarının turizm istiqaməti kimi inkişafı Azərbaycanın beynəlxalq turizm imicinin gücləndirilməsi baxımından da mühüm rol oynaya bilər. İşğaldan azad edilmiş ərazilərin bərpası və turizm potensialının reallaşdırılması regionun beynəlxalq turizm xəritəsində tanınmasına və xarici turistlərin marağının artmasına töhfə verə bilər. Bu isə ölkənin turizm sektorunun qlobal turizm bazarında mövqeyinin güclənməsinə və yeni turizm istiqamətlərinin formalaşmasına şərait yarada bilər.
Bununla belə, regionun mövcud turizm potensialının tam şəkildə reallaşdırılması bir sıra institusional, infrastruktur və idarəetmə xarakterli məhdudiyyətlərin mövcudluğu ilə müşayiət olunur. Bu səbəbdən Qarabağ və Şərqi Zəngəzur regionunda turizmin inkişafını məhdudlaşdıran əsas amillərin sistemli şəkildə müəyyənləşdirilməsi və təhlil edilməsi xüsusi əhəmiyyət kəsb edir. Regionda turizm fəaliyyətinin inkişafına təsir göstərən əsas məhdudiyyətlər Cədvəl 2-də ümumiləşdirilmiş şəkildə təqdim olunur.

***Cədvəl 2.*** *Qarabağ və Şərqi Zəngəzur regionunda turizmin inkişafını məhdudlaşdıran əsas amillər*

| Kateqoriya | Məhdudiyyət | Qısa izah |
|---|---|---|
| İnfrastruktur məhdudiyyətləri | Turizm obyektlərinin və xidmət infrastrukturunun məhdudluğu | Regionda turizm obyektlərinin və xidmət infrastrukturunun tam formalaşmaması turizm fəaliyyətinin genişlənməsini məhdudlaşdırır. |
| Nəqliyyat əlçatanlığı | Bəzi turizm məkanlarına çıxış imkanlarının məhdudluğu | Dağlıq relyef və infrastrukturun yeni formalaşması bəzi ərazilərə turizm axınının cəlb edilməsini çətinləşdirir. |
| İnvestisiya riskləri | Turizm layihələri üçün investisiya mühitinin formalaşma mərhələsində olması | Regionda turizm investisiyalarının həcmi hələ tam formalaşmamışdır. |
| Kadr potensialı | Turizm sektorunda peşəkar kadrların məhdudluğu | Turizm xidmətlərinin keyfiyyəti üçün kadr hazırlığı mühüm əhəmiyyət daşıyır. |
| Marketinq və tanıtım | Regionun beynəlxalq turizm bazarında tanıtımının zəifliyi | Region yeni turizm istiqaməti olduğundan beynəlxalq səviyyədə tanıtım hələ kifayət qədər inkişaf etməmişdir. |
| Mövsümilik problemi | Turizm fəaliyyətinin mövsümi xarakter daşıması | Turizm axınının müəyyən mövsümlərdə cəmləşməsi sektorun sabit inkişafına mane ola bilər. |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 2-də təqdim olunan məhdudiyyətlərin təhlili göstərir ki, Qarabağ və Şərqi Zəngəzur regionunda turizm fəaliyyətinin inkişafı mövcud potensiala baxmayaraq bir sıra struktur və institusional çətinliklərlə müşayiət olunur. Bu məhdudiyyətlərin əhəmiyyətli hissəsi regionun uzun müddət iqtisadi fəaliyyət dövriyyəsindən kənarda qalması və turizm infrastrukturlarının yeni formalaşma mərhələsində olması ilə bağlıdır. Turizm obyektlərinin, yerləşdirmə xidmətlərinin və digər xidmət infrastrukturlarının tam formalaşmaması turizm fəaliyyətinin geniş miqyasda inkişafını müəyyən dərəcədə məhdudlaşdıran əsas amillərdən biri hesab olunur.
Regionun turizm potensialının reallaşdırılmasına təsir edən digər mühüm amil nəqliyyat əlçatanlığı ilə bağlıdır. Son illərdə regionda yeni avtomobil yollarının və hava limanlarının tikintisi həyata keçirilsə də, bəzi turizm məkanlarına çıxış imkanlarının hələ tam formalaşmaması turist axınının cəlb edilməsini müəyyən qədər çətinləşdirə bilər. Bu baxımdan regionun turizm sisteminə tam inteqrasiyası üçün nəqliyyat-kommunikasiya infrastrukturunun daha da inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.
Turizm sektorunun inkişafına təsir edən məhdudiyyətlərdən biri də investisiya mühiti ilə bağlıdır. Regionda turizm fəaliyyətinin yeni formalaşması turizm layihələrinin maliyyələşdirilməsi və özəl investisiyaların cəlb edilməsi baxımından müəyyən çətinliklər yarada bilər. Bununla yanaşı, turizm xidmətlərinin keyfiyyətli şəkildə təşkili üçün peşəkar kadr potensialının formalaşdırılması da mühüm

məsələlərdən biridir. Turizm sektorunda ixtisaslaşmış kadrların hazırlanması xidmət keyfiyyətinin yüksəldilməsi və turizm məhsullarının rəqabət qabiliyyətinin artırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Digər tərəfdən, regionun beynəlxalq turizm bazarında tanıdılması və turizm potensialının effektiv şəkildə təqdim edilməsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Qarabağ və Şərqi Zəngəzur regionları yeni turizm istiqamətləri kimi formalaşdığından onların beynəlxalq turizm bazarlarında tanıtımının gücləndirilməsi və marketinq strategiyalarının hazırlanması zəruridir. Bu amil regiona xarici turist axınının formalaşması baxımından mühüm rol oynaya bilər.

Turizm fəaliyyətinin inkişafına təsir göstərən digər mühüm məhdudiyyətlərdən biri də turizm axınının mövsümi xarakter daşıması ilə bağlıdır. Turizm fəaliyyətinin müəyyən dövrlərdə, xüsusilə yay mövsümündə daha intensiv olması regionda turizm sektorunun davamlı inkişafına müəyyən çətinliklər yarada bilər. Turist axınının ilin müəyyən dövrlərində cəmləşməsi turizm infrastrukturlarının və xidmət sektorunun ilboyu səmərəli fəaliyyət göstərməsinə mane ola bilər. Bu baxımdan regionda turizm fəaliyyətinin mövsümi asılılığının azaldılması və turizm məhsullarının müxtəlif mövsümlərdə də cəlbedici olmasını təmin edən turizm növlərinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə dağ və qış turizmi, sağlamlıq turizmi və ekoturizm kimi fəaliyyət istiqamətləri turizm mövsümünün genişləndirilməsi baxımından mühüm rol oynaya bilər.

Beləliklə, aparılmış təhlil göstərir ki, Qarabağ və Şərqi Zəngəzur regionunda turizmin inkişafı üçün mövcud potensial kifayət qədər yüksək olsa da, bu potensialın tam şəkildə reallaşdırılması üçün bir sıra struktur və institusional məhdudiyyətlərin aradan qaldırılması tələb olunur. Bu baxımdan regionda turizm fəaliyyətinin inkişafını təmin etmək üçün məqsədyönlü siyasət tədbirlərinin və inkişaf strategiyalarının hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

## Turizm vasitəsilə regionun iqtisadi diversifikasiyasının təmin olunması istiqamətləri

Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm potensialının reallaşdırılması və əvvəlki bölmədə müəyyən edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə turizm sektorunun inkişafı üzrə bir sıra strateji istiqamətlərin müəyyənləşdirilməsi zəruridir. Turizmin regionun iqtisadi strukturunda mühüm sahələrdən birinə çevrilməsi üçün Cədvəl 3-də göstərilən əsas inkişaf istiqamətləri və siyasət tədbirləri təklif edilə bilər.

***Cədvəl 3.*** *Qarabağ və Şərqi Zəngəzur regionunda turizmin inkişafı üzrə prioritet istiqamətlər*

| İstiqamət | Təklif olunan tədbirlər | Gözlənilən nəticələr |
|---|---|---|
| Turizm infrastrukturunun inkişafı | Hotel və rekreasiya obyektlərinin yaradılması, turizm xidmətlərinin genişləndirilməsi | Regionun turizm cəlbediciliyinin artması |
| Dağ və qış turizminin inkişafı | Xizək mərkəzlərinin və dağ kurortlarının yaradılması | Turizm mövsümünün uzadılması və ilboyu turizm fəaliyyətinin təmin olunması |
| Sağlamlıq turizminin inkişafı | İstisu mineral bulaqları əsasında sanatoriya və kurort komplekslərinin yaradılması | Sağlamlıq turizminin inkişafı və yeni turizm məhsullarının formalaşması |
| Regional turizm marşrutlarının yaradılması | Mədəni və təbii turizm obyektlərini birləşdirən turizm marşrutlarının hazırlanması | Turistlərin region daxilində hərəkətliliyinin artması |
| Turizm investisiyalarının təşviqi | Dövlət-özəl tərəfdaşlığı və investisiya təşviqi mexanizmlərinin tətbiqi | Turizm infrastrukturlarının inkişafı və investisiya axınının artması |
| Turizm kadrlarının hazırlanması | Turizm sahəsində təlim proqramlarının və ixtisaslaşdırılmış təhsil imkanlarının yaradılması | Turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi |
| Beynəlxalq turizm marketinqi | Regionun beynəlxalq turizm sərgilərində və platformalarda tanıdılması | Xarici turist axınının artması |

***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəldə təqdim olunan istiqamətlər Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm sektorunun inkişafı və regionun iqtisadi fəaliyyətinin şaxələndirilməsi üçün əsas strateji tədbirləri əks etdirir. Bu istiqamətlərin hər biri regionun mövcud turizm potensialının daha səmərəli reallaşdırılmasına və turizm fəaliyyətinin davamlı inkişafına şərait yarada bilər.

**1. Turizm infrastrukturunun inkişafı**

Regionda turizm fəaliyyətinin genişləndirilməsi üçün müasir turizm infrastrukturunun formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Xüsusilə yerləşdirmə obyektlərinin, rekreasiya məkanlarının və turizm xidmətlərinin inkişaf etdirilməsi regionun turizm cəlbediciliyinin artmasına imkan verə bilər. Bu tədbirlər turistlərin regionda daha uzun müddət qalmasına və turizm xidmətlərinə olan tələbatın artmasına şərait yarada bilər.

**2. Dağ və qış turizminin inkişafı**

Regionun dağlıq relyefi və iqlim şəraiti qış turizmi və dağ turizmi kimi fəaliyyət istiqamətlərinin inkişafı üçün əlverişli imkanlar yaradır. Bu baxımdan xizək mərkəzlərinin və dağ kurortlarının yaradılması turizm fəaliyyətinin mövsümi asılılığını azaltmağa və turizm sektorunun ilboyu fəaliyyət göstərməsinə imkan verə bilər.

**3. Sağlamlıq turizminin inkişafı**

Regionda mövcud olan mineral su resurslarının turizm dövriyyəsinə cəlb edilməsi sağlamlıq və müalicə turizminin inkişafı üçün mühüm potensial formalaşdırır. Xüsusilə Kəlbəcər rayonunda yerləşən İstisu mineral bulaqları əsasında sanatoriya və kurort komplekslərinin yaradılması regionda yeni turizm məhsullarının formalaşdırılmasına şərait yarada bilər.

**4. Regional turizm marşrutlarının formalaşdırılması**

Regionun müxtəlif turizm resurslarının vahid turizm marşrutları çərçivəsində birləşdirilməsi turizm potensialının daha effektiv istifadəsinə imkan verə bilər. Tarixi-mədəni abidələri, təbii landşaftları və rekreasiya məkanlarını əhatə edən turizm marşrutları turistlər üçün daha kompleks turizm məhsullarının təqdim edilməsinə və regionun turizm cəlbediciliyinin artmasına töhfə verə bilər.

**5. Turizm investisiyalarının təşviqi**

Regionda turizm fəaliyyətinin genişləndirilməsi üçün investisiya mühitinin yaxşılaşdırılması və özəl sektorun turizm layihələrinə cəlb olunması mühüm əhəmiyyət kəsb edir. Dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi və investisiya təşviqi mexanizmlərinin tətbiqi turizm infrastrukturlarının formalaşdırılmasına və turizm layihələrinin həyata keçirilməsinə müsbət təsir göstərə bilər.

**6. Turizm sektorunda kadr potensialının formalaşdırılması**

Turizm xidmətlərinin keyfiyyətli şəkildə təşkili üçün ixtisaslaşmış kadrların hazırlanması vacib şərtlərdən biridir. Bu məqsədlə turizm sahəsində peşəkar təlim proqramlarının və ixtisaslaşdırılmış təhsil imkanlarının yaradılması regionda turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə imkan verə bilər.

**7. Beynəlxalq turizm marketinqinin gücləndirilməsi**

Regionun turizm potensialının beynəlxalq turizm bazarlarında tanıdılması və effektiv marketinq strategiyalarının hazırlanması turizm sektorunun inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Qarabağ və Şərqi Zəngəzur regionlarının beynəlxalq turizm sərgilərində və müxtəlif turizm platformalarında təqdim olunması regiona xarici turist axınının artmasına töhfə verə bilər.

Beləliklə, qeyd olunan istiqamətlərin həyata keçirilməsi Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm sektorunun inkişafına, regionun iqtisadi fəaliyyətinin şaxələndirilməsinə və sosial-iqtisadi inkişafın sürətləndirilməsinə əhəmiyyətli təsir göstərə bilər.

## NƏTİCƏ

Aparılmış tədqiqatın nəticələri göstərir ki, Qarabağ və Şərqi Zəngəzur regionları turizm sektorunun inkişafı baxımından əhəmiyyətli təbii və mədəni resurs potensialına malikdir. Regionun dağlıq landşaftı, mineral su ehtiyatları, zəngin biomüxtəlifliyi və tarixi-mədəni irsi turizmin müxtəlif istiqamətlər üzrə inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaradır. Bu resursların məqsədyönlü və səmərəli şəkildə istifadəsi regionda turizm fəaliyyətinin genişlənməsinə və turizmin iqtisadi strukturda mühüm sahələrdən birinə çevrilməsinə şərait yarada bilər.

Tədqiqat çərçivəsində aparılmış təhlil göstərir ki, turizm sektoru regionun iqtisadi fəaliyyətinin şaxələndirilməsi baxımından mühüm inkişaf mexanizmlərindən biri kimi çıxış edə bilər. Turizm fəaliyyətinin genişlənməsi yalnız xidmət sektorunun inkişafını stimullaşdırmır, eyni zamanda nəqliyyat, ticarət, kənd təsərrüfatı və kiçik sahibkarlıq kimi sahələrdə də iqtisadi aktivliyin artmasına səbəb olur. Bu baxımdan turizmin inkişafı regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsi və yeni iqtisadi fəaliyyət sahələrinin formalaşdırılması baxımından mühüm rol oynaya bilər.

Eyni zamanda aparılmış araşdırmadan aydın olur ki, regionda mövcud turizm potensialının tam şəkildə reallaşdırılması müəyyən struktur və institusional məhdudiyyətlərin aradan qaldırılmasını tələb edir. Turizm infrastrukturlarının tam formalaşmaması, turizm layihələrinə investisiyaların həcminin məhdudluğu, turizm marşrutlarının kifayət qədər olmaması, turizm sahəsində peşəkar kadr potensialının yetərli səviyyədə olmaması, mövsümilik və regionun beynəlxalq turizm bazarında tanıtımının zəif olması turizm sektorunun inkişafına təsir göstərən əsas məhdudiyyətlər kimi qiymətləndirilə bilər.

Bu baxımdan tədqiqat çərçivəsində turizm vasitəsilə regionun iqtisadi diversifikasiyasının təmin olunmasına yönəlmiş bir sıra inkişaf istiqamətləri irəli sürülmüşdür. Turizm infrastrukturunun inkişaf etdirilməsi, dağ və qış turizmi obyektlərinin yaradılması, sağlamlıq turizminin inkişafı, regional turizm marşrutlarının formalaşdırılması, daha məhsuldar turizm kadrlarının hazırlanması, turizm sahəsinə investisiyaların təşviqi və beynəlxalq turizm marketinqinin gücləndirilməsi regionda turizm sektorunun inkişafı üçün mühüm tədbirlər kimi qiymətləndirilə bilər.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur regionlarında turizm sektorunun inkişafı regionun iqtisadi potensialının reallaşdırılması və iqtisadi fəaliyyətin şaxələndirilməsi baxımından mühüm strateji istiqamətlərdən biri kimi çıxış edə bilər. Turizmin planlı və məqsədyönlü şəkildə inkişaf etdirilməsi regionun sosial-iqtisadi inkişafına müsbət təsir göstərməklə yanaşı, onun ölkənin ümumi iqtisadi sisteminə daha effektiv inteqrasiyasına da imkan yarada bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Balaguer, J., & Cantavella-Jordá, M. (2002). Tourism as a long-run economic growth factor: The Spanish case. *Applied Economics*, 34(7), 877–884. https://doi.org/10.1080/00036840110058923
2. Brida, J. G., Cortes-Jimenez, I., & Pulina, M. (2016). Has the tourism-led growth hypothesis been validated? A literature review. *Current Issues in Tourism*, 19(5), 394–430. https://doi.org/10.1080/13683500.2013.868409
3. CEIC Data. (2024). *Azerbaijan visitor arrivals statistics*. https://www.ceicdata.com/en/indicator/azerbaijan/visitor-arrivals
4. Croes, R., & Vanegas, M. (2008). Cointegration and causality between tourism and poverty reduction. *Journal of Travel Research*, 47(1), 94–103. https://doi.org/10.1177/0047287507312429
5. Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan. (2023). *Transport infrastructure projects in liberated territories*. https://mincom.gov.az

6. Ministry of Economy of the Republic of Azerbaijan. (2023). *Development of Karabakh and East Zangezur economic regions*. https://economy.gov.az
7. Organisation for Economic Co-operation and Development (OECD). (2020). *Tourism trends and policies*. OECD Publishing. https://www.oecd.org/cfe/tourism/
8. Sharpley, R. (2009). *Tourism development and the environment: Beyond sustainability?* Earthscan. https://doi.org/10.4324/9781849772747
9. Süleymanov, E., Hüseynova, Y., & Mustafayeva, G. (2019). Azərbaycanda qeyri-neft iqtisadiyyatının formalaşdırılmasında turizm sektorunun yeri. *Turizm və rekreasiya XXI əsrdə: problemlər və perspektivlər*, IV beynəlxalq konfrans materialları. Bakı.
10. State Statistical Committee of the Republic of Azerbaijan. (2019–2025). *Turizm statistikası*. https://www.stat.gov.az/source/tourism
11. State Tourism Agency of the Republic of Azerbaijan. (2022). *Tourism Development Strategy of Azerbaijan*. https://tourism.gov.az
12. World Tourism Organization. (2019). *Global report on tourism and economic diversification*. Madrid: UNWTO. https://www.unwto.org
13. World Tourism Organization. (2023). *International tourism statistics*. Madrid: UNWTO. https://www.unwto.org
14. İbrahimov, M. (2018). *Turizmin inkişafının regional iqtisadiyyata təsiri*. Bakı: Elm.
15. Ələkbərov, A. M., & Sadıqov, E. M. (2017). Azərbaycanda turizmin inkişaf perspektivləri və onun iqtisadi əhəmiyyəti. *UNEC Elmi Xəbərləri*. https://unec.edu.az/application/uploads/2017/05/Elmi-Xeberler.pdf
16. President of the Republic of Azerbaijan. (2021). *Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında fərman*. https://president.az/az/articles/view/50474